# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

№ 036 (7446)

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

13 may 2026-cı il.
Qiyməti 1 manat

## YAP nümayəndə heyəti Çində səfərdədir



5

## Cəbrayıl və Zəngilan - inkişafın yeni NÜMUNƏSİ!

Prezident İlham ƏLİYEV: "Hər şey elə qurulmalıdır ki, azad edilmiş ərazilər nəinki Azərbaycanda, dünyada nümunəvi olsun və bu da olacaq"




2

# İrəvanda seçki "alovu" - gərginlik PİK HƏDDƏ!

*Ermənistanda həlledici seçki mərhələsi*



4

### "Yoluxma riski..." - ÜST Azərbaycanda hantavirusa dair məlumat yaydı




8

### Ahıllara qayğı: dövlətin rolu artır, bəs ailənin yeri haradadır?



5

### Etnik təmizləmə və deportasiya planı




7

### Moskva İrəvandakı iyun seçkilərini bəribaşdan uduzub...



4

### Virtual dünyanın uşaqları: mənzərə necədir?



6

# Cəbrayıl və Zəngilan - inkişafın yeni NÜMUNƏSİ!

## Prezident İlham ƏLİYEV: "Hər şey elə qurulmalıdır ki, azad edilmiş ərazilər nəinki Azərbaycanda, dünyada nümunəvi olsun və bu da olacaq"

Məlum olduğu kimi, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 9-10 may 2026-cı il tarixində Cəbrayıl və Zəngilan rayonlarına səfər ediblər. Səfər zamanı bir sıra yaşayış komplekslərinin və mühüm müəssisələrin açılışı olmuşdur. Mayın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cəbrayıl rayonunun Şükürbəyli kəndinə köçən sakinlərlə görüşüblər. Dövlətimizin başçısı öz çıxışında bildirib ki, bu gün çox gözəl bir gündür, tarixi bir gündür, ədalətin təntənəsi günüdür. "Biz - bu torpaqların sahibləri nəinki bu torpaqları düşmən əlindən döyüşərək aldıq, şəhidlər verərək aldıq, eyni zamanda, bu torpaqları canlandırdıq. İşğal dövründə Ermənistan dövləti Cəbrayıl rayonunda bir daşı daş üstə qoymamışdı. Düzdür, yol çəkmək istəyirdi, amma buna vaxtı çatmadı. Amma bir daşı daş üstə qoymamışdır. Cəbrayıl tamamilə yerlə-yeksan edilmişdir, nə şəhərdə, nə də ki, kəndlərdə bir dənə də salamat bina qalmamışdı, Ağdam kimi. Zəngilanda tək-tük ev qalmışdı, orada qanunsuz məskunlaşma da aparırdılar. Amma Füzuli, Ağdam, Cəbrayıl tamamilə dağıdılmışdır. Evlər söküldü, daşlar talan










edildi, müxtəlif yerlərdə bazarlarda satıldı. Biz isə qurub-yaradırıq. İndi Cəbrayıl rayonunda bir neçə min insan yaşayır. İlk növbədə, Cəbrayıl şəhərində, - şəhərin mərkəzi də buradan o qədər də uzaq deyil, - ondan sonra Horovlu kəndində, Cocuq Mərcanlıda. Aprel döyüşlərindən sonra biz o kəndi yenidən qurduq. Ümumiyyətlə, Cəbrayılın gələcəkdə həm kənd təsərrüfatı, həm də nəqliyyat nöqteyi-nəzərindən ölkəmiz üçün böyük töhfəsi olacaq. Köhnə yolu siz yəqin ki, xatırlayırsınız, sovet vaxtında - işğala qədər çox ensiz bir yol idi, düz Araz çayının boyunca gedirdi. Onu biz bərpa etdik, amma yeni yol, - indi bilmirəm, siz onu görmüsünüz, yoxsa yox, - Zəngəzur dəhlizinin bir hissəsi olan, ta Ermənistan sərhədinə gedən dördzolaqlı yol. Yəni bunun ondan yuxarı standartları da yoxdur. Ona görə nəqliyyat məsələləri də burada həll olunur və gələcəkdə Cəbrayıl, beynəlxalq nəqliyyat dəhlizi üzərində qurulan şəhər və kəndlər bundan faydalanacaq. Cəbrayılda bizim ən böyük Günəş elektrik stansiyaları inşa edilir - üç stansiya, ümumi gücü 340 meqavat. Yəni bu gün 340 meqavatla bütün Qarabağı işıqlandırmaq olar. Beləliklə, bir daha bütün dünyaya göstərəcəyik ki, biz qurub-yaradan xalqıq, eyni zamanda, döyüşən xalqıq. Bu torpaqları biz qan tökərək qaytarmışıq, - Allah bütün şəhidlərimizə rəhmət eləsin, - parlaq Qələbə qazanmışıq, bu Qələbənin müasir tarixdə tayı-bərabəri yoxdur, yəqin ki, olmayacaq və biz bu əbədi Qələbə ilə fəxr etməliyik. Gənc nəsil də evlərdə, ailələrdə, məktəblərdə bu ruhda tərbiyə almalıdır ki, biz müzəffər ölkə, xalq kimi bundan sonra qürurla yaşayaq."

"Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu doğma torpaqlarımızın işğaldan azad olunması idi. Biz - onun davamçıları onun vəsiyyətini yerinə yetirdik". Bu sözləri isə Prezident İlham Əliyev Zəngilan şəhərində sakinlərlə görüşdə deyib. Dövlətimizin başçısı qeyd edib: "Bu gün Azərbaycan ərazisində hər qarış torpaq Azərbaycan xalqına məxsusdur. İşğalçıları torpaqlarımızdan qovaraq öz ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etdik". Cənab Prezidentin Ulu Öndər Heydər Əliyevin doğum günündə sakinlərlə görüşü rəmzi məna daşıyır. Dövlət başçısı bildirib ki, Onun fəaliyyəti nəticəsində Azərbaycan ağır günlərdə öz müstəqilliyini qoruya bilmişdir: "Bildiyiniz kimi, yaşlı nəsil o illəri yaxşı xatırlayır - 1993-cü ildə nəinki ərazi bütövlüyümüz, müstəqilliyimiz təhlükə altında idi. O vaxt ölkəmizə rəhbərlik etmiş şəxslər ölkəmizi fəlakətə aparırdılar. Həm torpaqlarımızın işğal altına düşməsi, Şuşanın, Laçının, Kəlbəcərin erməni işğalına məruz qalması, daxili çəkişmələr, özbaşınalıq, anarxiya və ovaxtkı hakimiyyətin təxribatçı və xəyanətkar fəaliyyəti nəticəsində vətəndaş müharibəsinin başlanması - gənc müstəqil dövlətimiz olan Azərbaycan faktiki olaraq parçalanma ərəfəsində idi. O vaxt əgər Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gəlməsəydi, xalqımızın, dövlətimizin taleyi çox ağır ola bilərdi. Məhz onun fəaliyyəti nəticəsində bütün mənfi meyillərə son qoyuldu, vətəndaş müharibəsinə son qoyuldu, hakimiyyətsizlik, özbaşınalıq kimi hallara son qoyuldu, ölkəmizdə sabitlik yaradıldı, inkişaf başlandı və yavaş-yavaş ordu quruculuğu da artıq getməyə başladı".

44 günlük Vətən müharibəsində Cəbrayıl və Füzulidən sonra döyüş meydanında azad olunan 3-cü şəhər Zəngilan oldu. 29 oktyabr 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş rayon işğal olunmazdan qabaq erməni qüvvələri tərəfindən tam olaraq mühasirəyə alınmış və on minlərlə insan qırılmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Hər tərəfdən mühasirədə qalan sakinlər Araz çayını keçərək, xilas olmuşdular. Son iki yüz ildə xalqımızın 44 günlük Vətən müharibəsində qazandığı Zəfər qədər möhtəşəm qələbə yoxdur. Qazandığımız bu Zəfərdən beş ildən artıq zaman ötsə də hərb tarixində yeni səhifə açmış 44 günlük Vətən müharibəsindən ölkəmizdə, eləcə də dünya ölkələrində hələ də danışılır, müzakirələr aparılır. Bu Qələbə xalqımızın üzərindən məğlub, torpaqları işğal altında qalan, qaçqın və köçkün sözünü götürdü. Xalq-Dövlət-Ordu birliyinin ən yüksək səviyyədə olduğunu bütün dünya gördü. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin yenilməz qətiyyəti, dəmir iradəsi, yürütdüyü güclü daxili və xarici siyasət, Prezident kimi fəaliyyəti dövründə qəbul etdiyi qərarlar, atdığı addımlar, sərgilədiyi diplomatik gedişlər, qazandığımız qələbəni şərtləndirən başlıca amillər sırasındadır.

Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zəngilan şəhərindəki ilk yaşayış kompleksinə köçən ailələrlə görüşüb, onlara mənzillərin açarlarını təqdim edib.

### "BU GÜN BU ZƏNGİLAN ŞƏHƏRİNİN BU GÖZƏL MƏNZƏRƏSİ O SÖZLƏRİMİ BİR DAHA TƏSDİQLƏYİR"

"İşğal dövründə hər dəfə keçmiş köçkünlərlə dövlət xətti ilə yeni inşa edilmiş şəhərciklərdə görüşlər zamanı deyirdim ki, bu, müvəqqəti bir yerdir. Torpaqlar azad olunandan sonra sizin üçün daha gözəl şərait yaradılacaq. Bax, bu gün bu Zəngilan şəhərinin bu gözəl mənzərəsi o sözlərimi bir daha təsdiqləyir. İşğalın fəsadlarını aradan qaldırmaq - bu da çox çətin bir prosesdir. Minalar, torpaqların demək olar ki, işğalçılar tərəfindən zəhərlənməsi, ekosid" - deyə Prezident bildirib. Səfər çərçivəsində Zəngilan şəhərində Prezident "Zangilan City Park Hotel"in təməlini qoyub.

Dövlət başçımız bildirib ki, təkcə Zəngilan yox, görün, hər yerdə quruculuq işləri aparılır - yollar, körpülər, elektrik stansiyaları, su anbarları, köçkünlər üçün evlər, məktəblər tikilir: "Bax, sahiblər belə edər. Talançı, işğalçı isə gələr sökər, dağıdar. Amma nə qədər söksələr də, yenə də bizim iradəmizi qıra bilmədilər. Biz qayıtmalı idik və qayıtmışıq bu torpaqların sahibləri kimi. İndi də qurub-yaradırıq, o cümlədən Zəngilan rayonunda. Bu, şəhərdə birinci yaşayış məhəlləsidir, hələ ikinci, üçüncü olacaq".

***Zümrüd BAYRAMOVA***

# Prezident İlham Əliyev

## Bakı Olimpiya Stadionunun ərazisində WUF13 ilə bağlı görülən işlərlə tanış olub






Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də Bakı Olimpiya Stadionunun ərazisində mayın 17-22-də keçiriləcək "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusuna həsr olunan Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) ilə bağlı görülən işlərlə tanış olub. Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev və WUF13 Azərbaycan Əməliyyat Şirkətinin icraçı direktoru Adil Məmmədov dövlətimizin başçısına görülmüş işlər barədə məlumat verdilər.

Qeyd edək ki, tədbir məkanı Bakı Olimpiya Stadionu və onun ətrafında formalaşdırılan ümumi əməliyyat əhatə dairəsi üzrə 53 hektar təşkil edir. Bunun 43 hektarı əsas tədbir məkanı, 10 hektarı isə əsas nəqliyyat terminalı və parklanma-transfer zonası kimi planlaşdırılıb. Qeydiyyat, sessiya, sərgi, media, nəqliyyat, texniki təminat, könüllülər və məkan xidmətləri vahid əməliyyat sistemi kimi təşkil olunub. Açılış və bağlanış mərasimlərinin təşkil ediləcəyi tədbir zalı 6000 nəfərə qədər iştirakçını qəbul edə biləcək. Mövcud hazırlıq səviyyəsi forumun yüksək iştirakçı axınını, çoxsaylı paralel tədbirləri və beynəlxalq nümayəndə heyətlərinin qəbullarını uyğun şəkildə planlaşdırmağa imkan verir. Forumun əsas müzakirə və paralel tədbirlərinin olacağı zona 3,55 hektar sahəni əhatə edir və iclas zalları, tematik sessiyalar, BMT tədbirləri, paralel görüşlər və ikitərəfli danışıqlar üçün nəzərdə tutulub. Burada müxtəlif formatlı rəsmi və işgüzar görüşlərin eyni vaxtda keçirilməsi üçün şərait var. Forum zamanı gündə təxminən 300-ə qədər paralel sessiya, görüş və tədbirin keçirilməsi planlaşdırılır.




Tədbirdə BMT-nin 6 rəsmi dili - ərəb, Çin, ingilis, fransız, rus və ispan dilləri ilə yanaşı, Azərbaycan və türk dillərində də sinxron tərcümə təmin ediləcək. Eyni zamanda, əlilliyi olan şəxslər üçün beynəlxalq işarət dili xidməti nəzərdə tutulub. Bütün tədbir ərazisi üzrə 35-dən çox iaşə məntəqəsi nəzərdə tutularaq, məkanlar və açıq hava zonalarında yerləşdirilməklə iştirakçı axınının müxtəlif istiqamətlər üzrə paylanmasına və məkanda xidmət əlçatanlığının təmin olunmasına imkan verir.

İki hektar sahəni əhatə edən zonada isə "Media mərkəzi" ilə yanaşı, "Dəyirmi masa", "Xüsusi sessiya" və "Dialoq zalları" yerləşir. "Media mərkəzi"ndə iş sahəsi, canlı yayım və müsahibə otaqları, mətbuat konfransı zalı, TV studiyaları və media istirahət sahəsi mövcuddur. "Media mərkəzi"nin ümumi tutumu 600 nəfərdir. Burada eyni vaxtda isə 400 media nümayəndəsi işləyə bilər. Ərazidə istirahət zonası da yaradılıb. Zonanın ümumi vizual və memarlıq yanaşmasında İçərişəhərdən ilhamlanan elementlərdən və Azərbaycan xalçaçılığına aid ornamentlərdən istifadə edilib.

Forum iştirakçıları üçün açıq hava formatında WUF13 Bulvarı yaradılıb. Bu sahə 2,5 hektar ərazini təşkil edir və iştirakçıların sərbəst hərəkəti, istirahəti, iaşə xidmətlərindən istifadəsi və tədbir məkanında şəhər mühiti ab-havasını hiss etməsi üçün nəzərdə tutulub. Bulvar ərazisi "Expo zonası"na keçid və açıq ictimai məkan funksiyasını daşıyır. "Urban Expo zonası" isə 3,5 hektar sahəni əhatə edir. Ərazidə ölkə pavilyonları, beynəlxalq təşkilatlar, dövlət qurumları, yerli və regional hakimiyyət orqanları, özəl sektor, qeyri-hökumət təşkilatları, fondlar, təhsil və tədqiqat qurumları üçün sərgi sahələri yerləşir. Ümumilikdə, 121 pavilyon, o cümlədən 41 ölkə pavilyonu nəzərdə tutulub.

Forumun rəsmi mərasim komponentləri tədbir məkanının ümumi planlaşdırılmasında xüsusi nəzərə alınıb. Bayraq meydanı rəsmi mərasimlərin keçirilməsi üçün hazırlanıb və şəhər ab-havasının hiss olunması məqsədilə qala divarları motivləri ilə əhatələnib. Nəqliyyat terminalı və parklanma-transfer funksiyalarını əhatə edən əlavə 10 hektarlıq zona ümumi əməliyyat ərazisinə inteqrasiya edilib. Burada avtobus, taksi xidmətləri, parklanma və iştirakçıların məkana yönləndirilməsi proseslərinin idarə olunması icra ediləcək. Şəhər üzrə nəqliyyat mübadilə mərkəzləri, elektrik avtobusları, taksi xidməti və hava limanı daşımaları tədbirin ümumi nəqliyyat planına inteqrasiya olunub.

Qeydiyyat prosesi üçün olan sahədə eyni anda 70 nəfərə, saatda isə 1000 nəfərə xidmət göstərmək imkanı var. Əlilliyi olan şəxslər üçün ayrıca akkreditasiya və qeydiyyat masaları nəzərdə tutulub. Qeydiyyat əməliyyatları tədbirin tələblərinə uyğun olaraq Azərbaycan tərəfinin əməliyyat komandası tərəfindən qurulub və iştirakçı axınının mərhələli idarə olunmasına uyğunlaşdırılıb. Tədbirin fasiləsiz internet, yayım və rəqəmsal əməliyyat ehtiyaclarını təmin etmək üçün əsas və ehtiyat məlumat mərkəzləri, genişmiqyaslı fiber-optik və daxili şəbəkə infrastrukturu, simsiz şəbəkə avadanlıqları və fasiləsiz işləyəcək əməliyyat mərkəzi yaradılıb.

### *Rəsmi xronika*

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 9-da Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət ediblər.

***

Mayın 9-da Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun məzarını ziyarət ediblər.

## Prezident İlham Əliyev bp şirkətinin baş icraçı direktorunu qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də bp şirkətinin baş icraçı direktoru Meq O'Nili qəbul edib. Dövlətimizin başçısı Meq O'Nili bp şirkətinin baş icraçı direktoru vəzifəsinə təyin olunması münasibətilə təbrik etdi, onun rəhbərliyi ilə SOCAR-bp uğurlu əməkdaşlığının gələcəkdə də davam edəcəyinə əminliyini bildirdi.***



Prezident İlham Əliyev ölkəmizlə bp arasında 30 ildən artıqdır ki, nadir tərəfdaşlıq tarixçəsinin olduğunu dedi. Dövlətimizin başçısı vurğuladı ki, bu müddətdə həyata keçirilmiş bütün layihələrdən əldə edilən gəlir əsasən Azərbaycanın sosial-iqtisadi inkişafı üçün istifadə olunub. Ölkəmizlə bp arasında icra olunan layihələrin sayının artmaqda olduğunu deyən Azərbaycan Prezidenti bunun əməkdaşlığın hər iki tərəf üçün faydalı olduğunu nümayiş etdirdiyini vurğuladı və tərəfdaşlığımızın strateji xarakter daşıdığını diqqətə çatdırdı. Təbriklərə görə təşəkkürünü bildirən Meq O'Nil Bakıda olmaqdan şərəf hissi keçirdiyini dedi. bp şirkətinin baş icraçı direktoru Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin rəhbərliyi ilə neft və qazdan əldə edilən gəlirin ölkənin inkişafına sərf olunması ilə bağlı uzaqgörən liderliklərini xüsusi vurğuladı. Meq O'Nil bu xüsusda Bakının inkişafına, o cümlədən yollara və infrastruktura yatırılan sərmayəyə toxundu.

Dövlətimizin başçısı qeyd etdi ki, bəzi hallarda neft və qazdan əldə edilən gəlir sosial qeyri-bərabərliyə səbəb olur. Azərbaycanın timsalında isə bu, ölkənin tərəqqisinə kömək edib. Müstəqilliyimizi bərpa etdikdən bir müddət sonra "Əsrin müqaviləsi"nin imzalandığını xatırladan Prezident İlham Əliyev Birinci Qarabağ müharibəsindən sonra ölkəmizdə vəziyyətin çətin olduğunu dedi, ərazilərimizin itkisinə məruz qaldığımızı və humanitar fəlakətlə üzləşdiyimizi vurğuladı. Azərbaycan Prezidenti bildirdi ki, o zaman büdcəmiz sıfır səviyyəsində idi və bu vəziyyətdən çıxmağın yeganə yolu əsas beynəlxalq şirkətləri ölkəmizə cəlb etmək, onları investisiya yatırmağa inandırmaq idi. Prezident İlham Əliyev bu xüsusda bp-yə göstərdiyi etimada görə minnətdarlığını bildirdi.

Söhbət zamanı bp-nin ölkəmizdə icra etdiyi enerji, o cümlədən bərpaolunan enerji layihələri qeyd olundu, şirkətin işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirdiyi layihənin önəminə toxunuldu. Görüşdə ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında rolu qeyd edildi, SOCAR-bp əməkdaşlığının perspektivləri müzakirə olundu.

# İrəvanda seçki "alovu" - gərginlik PİK HƏDDƏ!

## *Ermənistanda həlledici seçki mərhələsi*

***Ermənistan parlament seçkilərinin ən həssas dönəminə ayaq basıb. Kimin qalib gələcəyi önümüzdəki 25 gündə baş verən hadisələrin nəticəsindən asılı olacaq. Düzdür, erməni xalqı, əgər ağıllanıbsa, bir daha avantüristlərin yeni oyununa gəlmək istəməyəcək və boş vədlərə aldanmayacaq. Amma siyasətin nələrə qadir olduğunu da unutmayaq. Ermənistanda fəaliyyət göstərən "Respublika Uğrunda" partiyasının sədr müavini Ruben Mehrabyan açıqlamasında bildirib ki, seçki kampaniyası çox dinamikdir və 7 iyun tarixinə qədər güc balansını proqnozlaşdıra bilmərik.***



Sosioloqların dediklərinə görə, Vətəndaş Müqaviləsi Partiyası liderdir. Samvel Karapetyanın partiyası ("Güclü Ermənistan"), Tsarukyanın partiyası ("Çiçəklənən Ermənistan") da yarışdadır. Həmçinin, həddindən az nüfuza sahib olan partiyalar arasında Robert Köçəryanın rəhbərlik etdiyi blok da var. Bu, mahiyyət etibarilə, onun 7 iyuna qədər tərəfdarlarının sayında artım olacağı ehtimalını aradan qaldırır. Avropa Siyasi Birliyinin İrəvanda keçirilən sammiti Paşinyana üstünlük qazandırdı, həm də Avropanın indiki iqtidara rəğbətini nümayiş etdirdi. Hər halda, Sammit Paşinyanın "əlinə oynadı", onun öləziyən nüfuzuna güc qatdı. Fransa diplomatiyasının məhsulu olan bu format Parisin də işinə yaradı, ona Cənubi Qafqazda "saman çöpü" ümidini verdi.

Ermənistanda parlament seçkiləri yaxınlaşdıqca, hakimiyyət uğrunda mübarizə təkcə ölkə daxilində deyil, həm də xaricdə şiddətlənir. Məsələn, katolikos II Qaregin açıq şəkildə "Güclü Ermənistan"ı dəstəkləyib, Rusiya və AB hökumətləri isə Yerevanın gələcəyi ilə bağlı toqquşublar. AB-nin genişlənmə üzrə komissarı Marta Kos bildirib ki, Avropa Ermənistan xalqını Avropaya inteqrasiya yolunda dəstəkləyəcək. Yalnız Ermənistan xalqı onların taleyini həll edə bilər. Avropa Siyasi Birliyinin son görüşü, eləcə də AB-Ermənistan sammiti onların hansı yolu seçmək istədiklərini göstərdi. Avropa onları dəstəkləyəcək.

"Bu, bizim işimiz deyil, amma prinsipcə, referendum keçirmək və Ermənistan vətəndaşlarından seçimlərinin nə olacağını soruşmaq tamamilə məntiqli olardı. Buna uyğun olaraq, biz müvafiq nəticələr çıxaracaq və yumşaq, ağıllı və qarşılıqlı faydalı boşanma yolu tutacağıq. Hazırda Ukrayna sahəsində baş verən hər şeyi yaşayırıq. Bəs hər şey haradan başladı? Ukraynanın AB-yə qoşulması və ya qoşulma cəhdi ilə", - deyə Putin bildirib.

Məlum olduğu kimi, Avropaya inteqrasiya Ermənistanın hakim Vətəndaş Müqaviləsi partiyasının seçki kampaniyasında əsas məqamlardan biridir. Baş nazir Nikol Paşinyan seçicilərini Qarabağda baş verənlərin onların tarixində ağrılı bir fəsil olduğuna inandırır, lakin bu, ölkə üçün bütün keçmiş itkiləri kompensasiya edəcək yeni imkanlar açıb. Eyni zamanda, İrəvan başa düşür ki, yaxın bir neçə ildə AB-yə qoşulmaq praktik olaraq mümkün deyil. Ermənistanın hələlik Avropa ilə vizasız rejimi belə yoxdur və nə vaxt olacağı bəlli deyil. Buna görə də respublika hakimiyyətinin yaxın gələcəkdə Avrasiya İqtisadi Birliyi (AİB) ilə münasibətlərini kəsmək planı yoxdur. Bu arada, "Mülki Müqavilə"nin əleyhdarları seçicilərə Paşinyanın Aİ ilə flört etməsinin Ermənistanı daha bir məğlubiyyətə aparacağına əminlik verirlər.

"Biz həmişə demişik: Ermənistanın AİB ilə Aİ arasında seçim etmə vaxtı gələndə, əlbəttə ki, bunu edəcəyik... Hazırda AİB-in üzvüyük və İttifaq daxilində fəaliyyətimizi davam etdiririk. Ermənistan xalqının Avropa istəkləri olduğu da sirr deyil. Qərar vermək vaxtı gələndə, bunu edəcəyik... Heç kim bizə: "Sabah gedin" deməyib", - deyə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan vurğulayıb.

Paşinyan özü 8 maydan 7 iyuna qədər tətildədir. O, seçki kampaniyası zamanı müxalifətin onu vəzifəsindən sui-istifadə etməkdə ittiham etməsinin qarşısını almaq üçün ofisini tərk edib. O, 11 mayı İrəvanın kənarında yerləşən Erebuni və Nubaraşen rayonlarında keçirib. Bunlar turistlər üçün ən cəlbedici yerlər deyil, lakin onlar tez-tez, məsələn, pis ekologiyadan şikayətlənən seçicilərin evidir. Paşinyan mühafizəçilər və tərəfdarlarının əhatəsində bayram musiqisi sədaları altında küçələrdə gəzib. Gözəl gənc qadınlar şəkil çəkmək üçün onun yanına qaçıblar və yaşlı qadınlar onu sadəcə qarşılayırdılar. Ümumiyyətlə, Paşinyan harada peyda olubsa, insanlar sevinibiər.

Vətəndaş Müqaviləsinin xalqa yaxınlığını nümayiş etdirmək üçün partiya lideri seçki kampaniyası zamanı üzvlərinin yalnız ictimai nəqliyyatdan istifadə edəcəyinə söz verib. Bu qərar həmin günün sonlarında qalmaqala səbəb olub. Metroda Paşinyan Vətəndaş Müqaviləsi reklam broşürünü qəbul etməkdən imtina edən yaşlı bir kişi ilə qarşılaşıb. Kişinin sözlərinə görə, "bütün bunlar kiçilən bir vətənə dəyməz". "Ermənistanın beynəlxalq səviyyədə tanınmış ərazisi olduğu kimi qalır. Delimitasiya nəticəsində bütün problemli ərazilər həll olunacaq", - deyə Paşinyan cavab verib.

Lakin onlar mübahisə etməyiblər. Sərnişin baş nazirə uzun müddətdir bir-birini tanıdıqlarını xatırladıb. Onların ortaq dostu Aleksandr Arzumanyan hazırda Ermənistanın Polşadakı səfiri vəzifəsində çalışır və bundan əvvəl o, Paşinyana universitetdə dərs demişdi. "O, mənə heç nə öyrətmədi, mən universitetdə, sonra isə iş başında öyrəndim. O, indi Ermənistanın Polşadakı fövqəladə və səlahiyyətli səfiridir", - deyə Paşinyan yekunlaşdırıb.

Bu arada, Erməni Apostol Kilsəsinin (EAK) rəhbəri II Qaregin "Güclü Ermənistan" hərəkatını açıq şəkildə dəstəkləyib. Xüsusilə, o, şəxsən rüsvay edilmiş oliqarx Samvel Karapetyanı ziyarət edib. Katolikos Samvel Karapetyanın "vətəninin rifahı və dünyadakı ermənilərin çiçəklənməsi naminə" əhəmiyyətli işlərini davam etdirəcəyinə əminliyini bildirib.

Xatırladaq ki, iş adamı EAK-ın Ali Ruhani Şurasının üzvüdür. Onun hesabına onlarla kilsə tikilib və bərpa edilib, o cümlədən Moskva Katedrali və Eçmiedzindəki Katolikosun iqamətgahı. Bir sözlə, Karapetyan və II Qaregin uzun müddətdir ki, isti münasibətdə idilər. Oliqarxın bir il əvvəl katolikosu müdafiə etməyə başlaması bunun daha bir sübutu idi. Bu arada, aprelin sonlarında dərc olunmuş sorğuya görə, Paşinyanın əleyhdarlarının koalisiya hökuməti qurmaq şansı var. Xüsusilə, seçicilərin təxminən 26,7%-i Vətəndaş Müqaviləsi partiyasına, 14,1%-i Güclü Ermənistana, təxminən 8,2%-i keçmiş prezident Robert Köçəryanın Ermənistanına və 7,9%-i oliqarx Qagik Tsarukyanın Çiçəklənən Ermənistanına səs verməyə hazır idi. Lakin burada vacib bir nüans var. Ermənistan 8%-lik seçki həddi olan bir ölkədir. Bu o deməkdir ki, Köçəryanın təşkilatı parlamentə belə düşməmək riski ilə üzləşir. Bundan əlavə, keçmiş prezident Karapetyanın onun titulunu əlindən aldığından narazıdır. Əgər "Mülki Müqavilə" birinci turda səslərin 50%-dən çoxunu toplaya bilməsə və rəqiblələri hökumət koalisiyası qura bilməsələr, ikinci tur keçiriləcək. Qalib avtomatik olaraq hökumət qurmaq üçün lazımi sayda yer qazanacaq.

***V.VƏLİLİ***

# Moskva İrəvandakı iyun seçkilərini bəribaşdan uduzub...

## Mətləb Salahov: "Çünki Vladimir Putin Ermənistanda Paşinyana qarşı alternativ və yeni real güc ortaya qoya bilməyib"

**"Ermənistanda yaxınlaşmaqda olan iyun seçkiləri bölgədə maraqları olan güclü dövlətləri və siyasi qüvvələri hərəkətə keçirib. Xüsusilə uzun əsrlərdir ki, Qafqazda böyük təsir sahibi sayılan Rusiyanın bu seçkilərə dönüş nöqtəsi kimi baxması, əslində, başadüşüləndir. 2019-cu ildən başlayaraq Nikol Paşinyan hakimiyyəti ilə açıq şəkildə düşmənçilik vəziyyətində olan Kreml, İrəvanda siyasi dəyişiklik üçün var gücü ilə çalışsa da, görünən odur ki, bu dəfə də istəyi alınmayacaq."**



Bu fikirləri SİA-ya açıqlamasında jurnalist-ekspert Mətləb Salahov bildirib. O qeyd edib ki, Vladimir Putin hazırda erməni cəmiyyətinin böyük dəstəyini qazanan və keçmiş rejimlərdən fərqli olaraq güclü sosial islahatlar reallaşdıran N.Paşinyana qarşı alternativ siyasi güc və ictimai rəy formalaşdıra bilməyib. "Onun keçmiş dostları və ya siyasi əlaltıları sayılan Robert Koçaryan və Serj Sarkisyan, habelə digər revanşist qruplaşmalar hazırda erməni cəmiyyəti üçün keçmişdə qalmış iyrənc xatirədən başqa heç bir mənə daşımırlar. Milyarder Karapetyan isə, ümumiyyətlə, siyasət üçün naşı və ictimai dəstəyi olmayan bir şəxsdir. Moskva İyun seçkilərinə çox əvvəllərdən hazırlaşmalı idi, lakin görünən odur ki, bu, alınmayıb. Fakt budur.

Digər bir baxımdan hazırkı ABŞ prezidenti Donald Tramp da N.Paşinyan hakimiyyətini güclü şəkildə dəstəkləyir və bölgədə açılışı gözlənilən nəqliyyat-iqtisadi layihələri hazırkı hakimiyyətlə reallaşdırmaq qərarındadır. Bu isə N.Paşinyana güclü dəstək göstəricisidir. Üstəlik, Qərb siyasi institutları da baş naziri dəstəkləyirlər ki, bu da Rusiyanın Ermənistandakı mövqeləri üçün böyük təhlükə anonsudur".

***Afət Tahirqızı***

# YAP nümayəndə heyəti Çində səfərdədir

***Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə, partiyanın Veteranlar Şurasının üzvü, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərov, Mərkəzi Aparatın Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin müdiri Hülya Məmmədli, İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərovdan ibarət nümayəndə heyəti Çin Kommunist Partiyasının (ÇKP) dəvəti ilə Çin Xalq Respublikasına səfər edib.***

Səfər çərçivəsində mayın 12-də nümayəndə heyətinin Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsi sədrinin müavini Çjen Tszyanban ilə görüşü keçirilib.









Görüşdə Azərbaycan-Çin münasibətlərinin tarixi ənənələrə, möhkəm dostluğa, qarşılıqlı etimada və hərtərəfli strateji tərəfdaşlığa əsaslandığı vurğulanıb.



Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpinin dövlətlərarası münasibətlərin inkişafına xüsusi önəm verdikləri bildirilib.

Prezident İlham Əliyevin 2025-ci ilin aprel ayında Çinə rəsmi dövlət səfəri çərçivəsində imzalanmış "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"dan irəli gələrək fəal siyasi dialoq şəraitində müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi-ticari, nəqliyyat-logistika, turizm, yaşıl enerji, rəqəmsal texnologiyalar və digər sahələrdə mövcud potensialdan səmərəli istifadənin diqqət mərkəzində saxlanıldığı və çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsi üçün ardıcıl fəaliyyətin həyata keçirildiyi qeyd olunub.



Qlobal kataklizmlərlə müşayiət olunan geosiyasi transformasiya şəraitində Azərbaycan ilə Çinin beynəlxalq hüquq normalarına və milli maraqlara hörmət prinsiplərinə əsaslanaraq bəşəriyyətin sağlam gələcəyi naminə sülhün, təhlükəsizliyin və qarşılıqlı faydalı əməkdaşlığın təşviqi istiqamətində konstruktiv siyasət yürütməsinin önəmi vurğulanıb. Tahir Budaqov Azərbaycanın Vahid Çin prinsipini birmənalı şəkildə dəstəklədiyini bildirib. Çjen Tszyanban isə Çin Xalq Respublikasının ölkəmizin haqlı və ədalətli mövqeyini müdafiə etdiyini, o cümlədən ərazi bütövlüyü və suverenliyinə qətiyyətli dəstək göstərdiyini vurğulayıb. Hər iki ölkənin mühüm qlobal təşəbbüslərlə çıxış etdiyi qeyd olunaraq "Bir kəmər, bir yol" layihəsinin və Zəngəzur dəhlizinin geostrateji əhəmiyyəti diqqətə çatdırılıb.

Mayın 17-də paytaxt Bakıda öz işinə başlayacaq və Çin nümayəndə heyətinin də təmsil olunacağı BMT-nin Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyasının beynəlxalq müstəvidə şəhərsalma prosesində önəmli rol oynayacağına inam ifadə olunub.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində müasir şəhərsalma konsepsiyaları əsasında genişmiqyaslı bərpa-quruculuq işlərinin aparıldığı və Çin şirkətlərinin də innovativ texnologiyalardan istifadə etməklə bu prosesə mühüm töhfələr verə biləcəyi qeyd olunub.

Azərbaycan-Çin əlaqələrinin vacib tərkib hissəsi olaraq YAP ilə ÇKP arasında işbirliyinin, həmçinin qanunverici orqanlarda dostluq qruplarının səmərəli fəaliyyətinin əhəmiyyəti vurğulanıb. 2024-cü il noyabrın 13-də hakim partiyalar arasında imzalanmış Əməkdaşlıq Memorandumundan irəli gələrək müştərək hədəflərin gerçəkləşdirilməsi üçün məqsədyönlü tədbirlərin uğurla davam etdirildiyi bildirilib və bu xüsusda qarşılıqlı maraq doğuran digər məsələlərlə əlaqədar fikir mübadiləsi aparılıb. Nümayəndə heyətinin Pekin Partiya Məktəbinə, Mərkəzi Partiya Məktəbinin Tarix muzeyinə və "Xiaomi" şirkətinin avtomobil superzavoduna ekskursiyası da təşkil edilib.

# Ahıllara qayğı: dövlətin rolu artır, bəs ailənin yeri haradadır?

**"Azərbaycanda ahılların sayı artım dinamikası göstərir və bu artım onların sosial xidmətlər baxımından daha çox diqqət mərkəzinə gəlməsini zəruri edir. Yaşlı əhalinin payı yüksəldikcə, onların sosial müdafiəsi və gündəlik qayğılarının təşkili dövlət siyasətində mühüm istiqamətlərdən birinə çevrilir".**

Bu sözləri SİA-ya açıqlamasında sosioloq Üzeyir Şəfiyev deyib. O bildirib ki, bu sahədə dövlət tərəfindən zəruri addımlar atılıb: "Azərbaycanda ahıllar üçün xüsusi müəssisələr - ahıl evləri fəaliyyət göstərir, eyni zamanda müxtəlif sosial xidmət müəssisələrində onlara fərqli səviyyələrdə xidmətlər təqdim olunur. Ahıllara göstərilən sosial xidmətlər "Sosial xidmət haqqında" 30 dekabr 2011-ci il tarixli qanunla tənzimlənir. Bununla yanaşı, Nazirlər Kabinetinin 2013-cü il qərarına əsasən evdə sosial xidmətin təşkili və bu xidmətləri həyata keçirən şəxslərin fəaliyyəti də müəyyən qaydalar çərçivəsində qurulub. Hazırda ahıllara həm müəssisələrdə, həm də ev şəraitində sosial xidmətlər göstərilir. Bundan əlavə, günərzi mərkəzlərinin yaradılması da bu sahədə atılan mühüm addımlardandır. Bu isə göstərir ki, Azərbaycanda ahıllara yönəlmiş sosial xidmətlər artıq institusional səviyyədə formalaşıb.



Gələcəkdə bu xidmətlərə olan tələbatın daha da artacağı gözlənilir. Çünki ahılların əhali içində xüsusi çəkisi artır və bu da yeni sosial layihələrin tətbiqini zəruri edir. Dövlət bu istiqamətdə üzərinə düşən vəzifələri yerinə yetirir - həm sosial müdafiə, həm yaşayış şəraiti, həm də səyyar xidmətlərin təşkili baxımından mühüm işlər görülür. Sosial xidmətlər agentliyi vasitəsilə həm paytaxtda, həm də regionlarda ahıllara məişət işlərində kömək göstərən sosial işçilər fəaliyyət göstərir. Xüsusilə tənha yaşayan, yaxın qohumlarının qayğısından kənarda qalan ahıllar üçün evdə xidmət mexanizmləri tətbiq olunur. Bu xidmətlər onların gündəlik həyatını asanlaşdırmaq baxımından böyük əhəmiyyət daşıyır.

Bununla yanaşı, Azərbaycan cəmiyyətində ənənəvi olaraq ahıllara qayğı ailə üzvlərinin üzərinə düşüb. Tarixən valideynlərə övladların baxması həm mənəvi, həm də sosial norma kimi qəbul olunub. Lakin müasir dövrdə ailə strukturu dəyişir - nüvə ailələrinin sayı artır, övladlar valideynlərdən ayrı yaşayır və bu da ahıllara qayğı məsələsində yeni yanaşmalar tələb edir. Bu səbəbdən dövlətin rolu artmaqla yanaşı, övladların məsuliyyəti də unudulmamalıdır. Valideynlərə qayğı göstərmək yalnız mənəvi borc deyil, eyni zamanda hüquqi vəzifədir. Necə ki, valideynlərin övlad qarşısında öhdəlikləri var, övladların da valideyn qarşısında məsuliyyətləri qanunvericiliklə müəyyən olunub. Eyni zamanda nəzərə almaq lazımdır ki, bütün yükün dövlət üzərinə düşməsi uzunmüddətli perspektivdə ciddi maliyyə yükü yarada bilər. Buna görə də bu sahədə ailə institutunun rolu qorunmalı və təşviq edilməlidir".

***Ayşən Vəli***

# Ulu Öndər Heydər Əliyev fenomeni xalqımızın milli sərvətidir



Fakt və reallıq ondan ibarətdir ki, dünyada dövlətçiliyi qurub, onu inkişaf etdirmək çətin və ağır prosesdir. Çünki dövlətçiliyin əldə edilməsi ilə onun idarə edilməsində ciddi əngəllər ortaya çıxır. Bu əngəlləri aşmaq üçün dahi şəxsiyyətə, uzaqgörən liderə ehtiyac var. Belə bir lider olmadığı təqdirdə dövlətçilik məhvə məhkumdur. Misal olaraq 20-ci əsrin əvvəllərində qurulan Azərbaycan Xalq Cümhuriyyətinin liderin olmaması səbəbində dağılmasını göstərmək olar. Eyni fəlakətli vəziyyət 1991-ci ilə müstəqilliyin bərpa edilməsindən az sonra yenidən dövlətçiliyin sıradan çıxması təhlükəsi ilə üzləşdi. 1991-1993-cü illərdə Azərbaycanda xaos və anarxiya hökm sürürdü. Zor gücünə hakimiyyəti zəbt etmiş AXC-Müsavat cütlüyü ölkənin müstəqilliyini məhv olmaqdan, xalqı üzləşdiyi bəlalardan xilas etmək üçün düşünülmüş tədbirlər görmək iqtidarında deyildi. Siyasi baxımdan təcrübəsiz, dövlət idarəçiliyində heç bir təsəvvürə malik olmayan hakimiyyət ölkəni ağır bəlalara sürükləyirdi. Ölkə daxili vəziyyətin idarə olunmaz durumda olmasından istifadə edən erməni hərbi birləşmələri ardıcıl olaraq torpaqlarımızı işğal edirdilər. Bu kimi ağır problemlərin həllinə səy göstərməkdənsə, AXC-Müsavat iqtidarı narazı xalqın üzərinə güc strukturlarını göndərir, onları zor gücünə sakitləşdirməyə çalışırdı. 1993-cü ilin iyun hadisələri ölkədaxili ağır durumun kulminasiya nöqtəsi oldu. Azərbaycanda vətəndaş müharibəsi qaçılmaz idi. Lakin bu dəfə xalq müdriklik göstərdi, vəziyyəti düzgün təhlil etdi və böhranlı vəziyyətin aradan qadırılması üçün tarixin fenomen lideri Heydər Əliyevə kömək üçün müraciət etdi. Azərbaycanın düçar ola biləcəyi daha böyük fəlakətlərin qarşısını almaq üçün ziyalılar Ulu Öndər Heydər Əliyevə müraciət etdi. 1992-ci il oktyabrın 16-da 91 nəfər ziyalının "Səs" qəzeti vasitəsi ilə Ulu Öndərimiz Heydər Əliyevə ünvanladığı müraciətdə deyilirdi: "Dövlət quruculuğundakı çoxillik təcrübənizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütlələrini özündə birləşdirə biləcək böyük, güclü, nüfuzlu və işlək partiya yarada bilərsiniz. Öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir".

## 15 iyun 1993-cü il Azərbaycan tarixinin qızıl səhifəsidir

1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycan dövləti faciələrdən xilas ola bildi. Dahi Öndər Heydər Əliyevin misilsiz idarəçilik qabiliyyəti, gərgin əməyi nəticəsində ölkəmizdə vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı, iqtisadi, hərbi, diplomatik nailiyyətlərin əldə olunması üçün geniş və əhatəli zəmin yaradıldı. Nüfuzlu beynəlxalq təşkilatların üzvü olan Azərbaycan həm də dünyanın aparıcı dövlətləri ilə iqtisadi, siyasi, diplomatik əlaqələr qurdu. Bu baxımdan haqlı olaraq 15 iyun 1993-cü il tarixi Azərbaycan tarixinin qızıl bir səhifəsi olaraq qeyd olunur. Ümummilli Lider Heydər Əliyev dəfələrlə qeyd edirdi ki, "mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram və bütün gücümlə çalışacam ki, dövlətim müstəqil, əbədi olsun". 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın bu gününə və gələcəyinə inamı artırdı. Bu müqavilədən sonra xeyli sayda neft-qaz sazişlərinin imzalanması, hazırda ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcminin 120 milyard dollardan artıq olması da deyilənlərin təsdiqidir. Təbii ehtiyatların xalqa məxsusluğunu sözdə deyil, əməldə göstərilməsinin tərəfdarı olan Ümummilli Lider Heydər Əliyev 1999-cu ilin dekabrında Dövlət Neft Fondunu yaratmaqla əldə olunan gəlirin şəffaf və ədalətli bölünməsini təmin etdi. Bu gün Neft Fondunun aktivlərinin həcmi 50 milyard dollardan artıqdır. 1996-2003-cü illərdə ölkəmizdə bütün makroiqtisadi göstəricilər 2-3 dəfə artdı. Ölkədə 3000 yeni sənaye müəssisəsi yaradıldı. 1993-2003-cü illərdə Azərbaycan iqtisadiyyatına 20 milyard dollar investisiya qoyuldu. Həmin dövrdə ümumi daxili məhsul 22,3 dəfə artdı. Bütün sahələrdə islahatlar geniş miqyas aldı, ölkəmizin beynəlxalq nüfuzu durmadan artmağa başladı. Ulu Öndərin müdrik siyasəti sayəsində düşmənlərin aramsız təxribatlarına, pozuculuq əməllərinə baxmayaraq, Azərbaycandakı müxtəlif mədəniyyətlərin, fərqli dünyagörüşlərinin toqquşması baş vermədi, ölkəmizdə tolerantlıq başlıca meyar olaraq qaldı.

## Yeni dövrün yeni LİDERİ

Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət Azərbaycan dövlətinə və xalqına qələbələr bəxş etməkdədir. 2003-cü ildən Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyev Azərbaycanı Dahi Öndərimiz Heydər Əliyev yolu ilə apararaq regionun lider dövlətinə, dünyada söz və nüfuz sahibinə çevirib. Bu gün ölkəmiz sürətlə inkişaf edən iqtisadiyyatı, əlverişli geostrateji mövqeyi, zəngin mədəniyyəti və ənənəvi tolerantlığı ilə bütün planetin diqqət mərkəzindədir. Fəaliyyətində xalqına güvənən, arxalanan dövlət başçısı xalqa xidmətdən böyük şərəf duyur: "Mənim işim ondan ibarətdir ki, xalqa xidmət etməliyəm. Onu da edirəm və bundan sonra da edəcəyəm. Bütün işlərimdə mən xalqa arxalanıram. Əgər təşəbbüslərimiz xalq tərəfindən dəstəklənməsəydi, bütün bu işləri görmək mümkün olmazdı".

Uğurların, qələbələrin ən yüksək zirvəsi isə 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün çəkən Vətən Müharibəsi ilə 30 il erməni işğalı altında olmuş torpaqlarımızın azad edilməsidir. 2023-cü ilin sentyabrın 19-da isə Qarabağda keçirilən antiterror əməliyyatları ilə bölgədəki bütün terrorçu hərbi birləşmələr məhv edildi və separatçı ünsürlərin əsas başçıları həbs edilərək istintaqa təhvil verildilər. Qısa müddət sonra isə Arutunyan, Vardanyan, Saakyan və digər insanlıq əleyhinə hərbi cinayətlər törətmiş hərbi canilər məhkəmə qarşısına çıxarılaraq layiq olduqları cəzanı aldılar. Qarabağın azadlığa qovuşmasının müəllifi isə Fateh Sərkərdə, Prezidentimiz İlham Əliyevdir. Məhz onun sərkərdəlik bacarığı, diplomatik fəaliyyəti nəticəsində 30 illik erməni işğalına son qoyuldu. Bu gün Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə cəbhədə əldə olunmuş zəfər Qarabağın yenidən qurulması ilə davam etdirilir. İnsanlar quruculuq, abadlıq, bərpa və tikinti işlərindən sonra öz doğma yurd-yuvalarına qayıdırlar.

**İ.ƏLİYEV**



Elçin Bayramlı

# Virtual dünyanın uşaqları: mənzərə necədir?

***Son vaxtlar internetdə, xüsusilə sosial şəbəkələrdə ciddi və narahatedici vəziyyət yaranıb. Bu mühit demək olar ki, nəzarətsizdir və burada istənilən məzmun paylaşılır. Paylaşılan materialların bir çoxu cəmiyyətin, xüsusilə də uşaqların psixologiyasına, şüuruna və düşüncə tərzinə ciddi zərər vurur. Bu məzmunlara əxlaqsızlıq, narkomaniyanın təbliği, zərərli vərdişlərin təşviqi, aqressiv davranışlar və müxtəlif uyğunsuzluq halları daxildir. Qeyd etmək lazımdır ki, internetin digər resurslarında da vəziyyət ürəkaçan deyil. Müxtəlif saytlarda onlayn qumar oyunlarından tutmuş çoxsaylı təhlükəli platformalar fəaliyyət göstərir.***

Məsələnin digər mühüm tərəfi sosial şəbəkə platformaları ilə bağlıdır. Bu platformalar arasında ən riskli hesab edilənlər xüsusilə "TikTok" və "Instagram"dır. Təəssüf ki, bu şəbəkələrdə vəziyyət artıq nəzarətdən çıxıb. İstənilən şəxs istədiyi məzmunu sərbəst şəkildə paylaşa, canlı yayımlar aça bilir. Bu prosesdə çoxsaylı uşaqlar və yeniyetmələr də iştirak edir. Hətta onların bir qismi açıq şəkildə yaşlarını qeyd edirlər. Belə ki, adətən 10, 12, 14 və s. yaşlarda olan istifadəçilərin sayının artığı müşahidə olunur. Bu isə açıq şəkildə nəzarətsizliyin göstəricisidir.

Sosial media platformalarından nəzarətsiz şəkildə istifadə nəticəsində uşaqların və yeniyetmələrin davranışlarında mənfi tendensiyalar müşahidə olunur. Bu hallar ailədə, məktəbdə və ümumilikdə cəmiyyətdə özünü göstərir: aqressiya artır, etik normalar pozulur, mənəvi dəyərlərə zidd olan davranışlar çoxalır. Eyni zamanda, sosial media platformaları və bəzi video-oyunlarındakı məzmunlarda zorakılıq hallarının normallaşdırılması nəticəsində uşaq cinayətkarlığında da artım müşahidə edilir.

Bu problemlə bağlı artıq dünyada ciddi müzakirələr aparılır. Bir çox ölkələrdə uşaqların sosial şəbəkələrə çıxışına məhdudiyyətlər tətbiq olunub, 18 yaşa qədər sosial şəbəkədən istifadə qadağan olunub. Bu istiqamətdə ölkələr ardıcıl şəkildə qərarlar qəbul edir. Azərbaycanda da bu məsələ uzun müddətdir müzakirə olunur və hesab olunur ki, sosial şəbəkələrə nəzarət gücləndirilməlidir. Müxtəlif texniki vasitələrlə məhdudiyyətlər tətbiq olunmalı, eyni zamanda, müəyyən cəza mexanizmləri nəzərdə tutulmalıdır. Xüsusilə, azyaşlıların sosial şəbəkələrə çıxışına şərait yaradan valideynlərin məsuliyyəti artırılmalıdır.

Bundan əlavə, məqsədəuyğun olardı ki, şagirdlər məktəbi bitirənə qədər onların smartfondan istifadəsi məhdudlaşdırılsın. Əlaqə üçün smartfonlar əvəzinə köhnə model telefonlardan istifadə oluna bilər. İnternet resurslarından isə yalnız müəllim və ya valideyn nəzarəti altında, faydalı məqsədlərlə istifadə edilməlidir.

Son vaxtlar uşaqlardan sui-istifadə halları da artıb. Bəzi valideynlər uşaqlarını sosial mediada məşhurlaşdırmaq və onlar üzərindən maddi qazanc əldə etmək üçün istifadə edir. Həmçinin "xəstə uşaq" adı ilə video yayıb pul toplamaq kimi hallara rast gəlinir və sonradan bu halların bir çoxunun saxtakarlıq olduğu üzə çıxır. Bu isə cəmiyyətdə etimadı sarsıdır və həqiqətən yardıma ehtiyacı olan insanlara dəstək göstərilməsinə mənfi təsir edir.

Bütün bunlar cəmiyyətin sosial münasibətlərinə, uşaqların psixologiyasına və ümumi kriminal vəziyyətə mənfi təsir göstərir, sağlam gələcək üçün ciddi təhlükə yaradır. Bu baxımdan hesab olunur ki, Azərbaycanda bu sahə ciddi nəzarətə götürülməlidir. Xüsusilə "TikTok" və "Instagram" kimi platformalarda nəzarət mexanizmləri gücləndirilməlidir.

Uşaqlar və yeniyetmələr virtual mühitdən uzaq tutulmalı, qaydaların pozulması halında isə məsuliyyət tədbirləri görülməlidir. Əsas məsuliyyət isə valideynlərin üzərinə düşür. Valideynlər və məktəb müəllimləri uşaqlarının internet fəaliyyətinə daim nəzarət etməli, onların hansı resurslardan istifadə etdiklərindən xəbərdar olmalıdırlar. Nəticə etibarilə, uşaqlar yalnız faydalı məqsədlərlə və böyüklərin nəzarəti altında internetdən istifadə etməlidir. Əks halda, nəzarətsiz və sərhədsiz internet mühiti xüsusilə uşaqlar və yeniyetmələr üçün ciddi təhlükə mənbəyinə çevriləcək.

# Hantavirus təhlükəsi: gəmiricilərin xəstəliyi insanlarda



Ölümcül hantavirus epidemiyası səbəbindən qəfildən qlobal xəbərə çevrilən və həftəsonu Kanar adalarının Tenerife bölgəsindəki Granadilla de Abona limanına lövbər salan MV Hondius gəmisində yoluxma halları artmaqdadır. Hantavirus epidemiyası ilə üzləşən MV Hondius kruiz gəmisindən daha iki sərnişinin test nəticəsi müsbət çıxıb. Gəmi təxliyələr başa çatdıqdan sonra Rotterdama gedəcək və sərnişinlər karantində qalacaqlar. Təxminən 150 sərnişinin təxliyə əməliyyatı zamanı gəmidən düşən iki nəfərin - Fransa və ABŞ vətəndaşının test nəticəsi müsbət çıxıb. Dünən təxliyələr başa çatdıqdan sonra gəmi Rotterdama yola düşüb. Gəmidən düşən son 27 sərnişin Hollandiyaya getmək üçün iki təyyarəyə minib. Fransanın səhiyyə naziri Stefani Rist bildirib ki, gəmidən təxliyə edilən bir Fransa vətəndaşının hantavirus test nəticəsi müsbət çıxıb, digər dörd nəfərin test nəticəsi isə mənfi çıxıb. Yoluxmuş sərnişinlə eyni təyyarədə səyahət edən səkkiz nəfərlə yanaşı, beş nəfər də karantinə alınıb. ABŞ Səhiyyə və İnsan Xidmətləri Departamenti evakuasiya edilən 17 ABŞ vətəndaşından ikisinin müşahidə altında olduğunu, bir sərnişinin testinin müsbət, digərinin isə yüngül simptomlar göstərdiyini açıqlayıb.

Dörd Almaniya vətəndaşı heç bir simptom göstərməməsinə baxmayaraq, Frankfurt Universitet Xəstəxanasında müşahidə altındadır. İyirmi Britaniya sərnişini Mançester Hava Limanına çatdıqdan sonra Merseysidedəki Arrowe Park Xəstəxanasında karantinə alındı. Cənubi Afrikanın Yohannesburq şəhərində hantavirus səbəbindən vəfat edən hollandiyalı qadınla eyni uçuşda səyahət edən dörd İtaliya vətəndaşı da ehtiyat tədbiri olaraq karantindədir. ÜST karantin müddətinin altı həftə olduğunu açıqladı. 1 apreldə Argentinanın Uşuaya şəhərindən yola düşən gəmidəki üç sərnişin isə bu virus səbəbindən ölüb.

Səhiyyə Nazirliyi hantavirus hallarının aşkarlandığı gəmidən evakuasiya edilən üç Türkiyə vətəndaşından götürülən nümunələrin mənfi olduğunu açıqlayıb. Səhiyyə Nazirliyi mətbuat açıqlamasında bildirib: "Kruiz gəmisindəki son üç vətəndaşımız təcili yardım təyyarəsi ilə ölkəmizə gətirilib və yaxından monitorinq və təcrid prosesləri başlayıb. Daha əvvəl ölkəyə daxil olan iki şəxsdə olduğu kimi, bu şəxslərdən də lazımi nümunələr götürülüb. Nəticələrin mənfi olduğu aşkarlanıb; onlar tövsiyə olunan müddət ərzində karantində saxlanılacaqlar. İndiyə qədər aparılan monitorinqlər zamanı beş nəfərdən heç birində heç bir klinik əlamət və ya simptom müşahidə edilməyib."

Qeyd edək ki, Hantavirus Bunyavirales dəstəsinin Hantaviridae ailəsindən olan tək bir qapalı RNT virusu növüdür və tip ştammı ilk dəfə 1978-ci ildə təsvir edilib. Gəmiricilərdə olan bu viruslar onlarda xəstəlik yaratmır. Onların ifrazatları hantavirusun insanlara yoluxmasının səbəbidir və 2005 və 2019-cu illərdə ilk dəfə insandan insana hantavirusun yoluxması halı Cənubi Amerikada iki dəfə qeydə alınıb.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması "istiqaməti çərçivəsində hazırlanıb*

Hantavirus, əsasən siçanlar və siçovullar vasitəsilə yayılan və insanlarda ciddi, bəzən ölümcül infeksiyalara səbəb ola bilən zoonotik viruslar qrupudur. Zoonotik heyvandan insana keçən tip viruslardır. Bu viruslar dünyada yeni deyil, uzun illərdir tibbə məlumdur. Hantavirus əsasən ağciyər və ya böyrək funksiyalarına təsir göstərən sindromlara yol açır. Virus gəmiricilərin sidiyi, nəcisi və tüpürcəyi vasitəsilə yayılır. İnsanlar, xüsusilə viruslu gəmiricilərin ifrazatlarının quruyub toza qarışması və nəfəs yolu ilə orqanizmə daxil olması nəticəsində yoluxurlar. Birbaşa gəmirici dişləməsi və ya çirklənmiş əşyalarla təmas da infeksiyaya səbəb ola bilər. Xəstəliyin erkən mərhələdə əlamətləri eynilə qripə yoluxmağa bənzəyir. Yüksək qızdırma, əzələ ağrıları, yorğunluq daha çox müşahidə edilir. Növbəti mərhələlərdə nəfəs darlığı, ya böyrək çatışmazlığı kimi ciddi fəsadlar yarana bilər. Hantavirus infeksiyalarının bəzi növləri 50%-ə qədər ölüm nisbətinə malik ola bilər, lakin bu, virusun ştammından asılıdır. Gəmiricilərin yaşayış yerlərindən uzaq tutulması, təmizlik işləri zamanı toz qaldırmamaq, maska və əlcəkdən istifadə etmək və qida məhsullarının qorunması əsas profilaktik tədbirlərdir. Hantavirusun insandan insana yoluxması çox nadir hallarda baş verir.

**Lalə Mehralı**

# Etnik təmizləmə və deportasiya planı

Ermənistanın Azərbaycana təcavüzü zamanı qədim torpaqlarımızda 1600 müsəlman dini abidəmiz ermənilər tərəfindən dağıdılıb, 1700 tarix və mədəniyyət abidəsinin üzərindəki tarixlər, divar yazıları götürülərək erməni mətnləri ilə əvəzlənib. Statistik rəqəmlərə nəzər saldıqda görürük ki, 500-dək tarixi memarlıq, 100-dən artıq arxeoloji abidə, fondlarında on minlərlə əşyanın toplandığı 22 muzey, 4 rəsm qalereyası, 4,6 milyon kitab və əlyazmaları saxlanılan 927 kitabxana, 808 klub, 85 musiqi və incəsənət məktəbi, 10 istirahət və mədəniyyət parkı, 20 konsert təşkilatı, bundan əlavə əhalinin şəxsi evlərində saxlanılan 100 minlərlə dekorativ-tətbiqi sənət nümunələri Ermənistanın silahlı hərbi təcavüzü nəticəsində yandırılıb, talan-qarət edilib. XVII əsrə aid olan Cəbrayıl bölgəsindəki Cümə məscidi, Yuxarı və Aşağı Gövhər Ağa məscidləri və Şuşa şəhərindəki Saatlı məscid (bu məscidlər XVIII əsrə aiddir) vandalizm, dağıdılma və uçurulma aktlarına məruz qalmış, Ağdam məscidi isə təhqir olunaraq donuzlar və inəklər üçün tövləyə çevrilmişdir. Tarixi dövrdə baş verənlərə nəzər saldıqca görürük ki, ermənilərin həyata keçirdikləri əməllər iyrənc siyasətdən qaynaqlanır.

Son iki yüz il ərzində regionda gedən mürəkkəb siyasi proseslər nəticəsində azərbaycanlılar öz əzəli yurdlarından zorla köçürülməyə, etnik təmizləmə və deportasiya siyasətinə məruz qalıblar. Ermənilərin "tarixi əzəli torpaqları"nı yaratmaq siyasəti mərhələ-mərhələ həyata keçirilib. Əvvəlcə onlar Azərbaycan torpaqlarında, yəni keçmiş İrəvan xanlığı ərazisində kiçik Ermənistan Respublikasını yaradıb, tədricən onun ərazisini böyüdüblər. Tarixdən bəllidir ki, İran və Rusiya arasında "Gülüstan", "Türkmənçay", Rusiya və Türkiyə arasında "Andrianopol" müqaviləsi imzalandıqdan sonra İran və Türkiyədən ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirilib.




1918-ci il mayın 28-də müstəqilliyini bəyan edən Azərbaycan yenə də erməni millətçilərinin torpaq iddiaları ilə üz-üzə gəlir. Vaxtilə Rusiyanın tərkibinə Azərbaycan xanlığı kimi daxil olmuş İrəvan xanlığının ərazisində erməni dövləti yaratmaq ideyası ortaya atılır. Həmin dövrdə Azərbaycan siyasətçiləri tarixi şəraitə uyğun olaraq bir sıra güzəştlərə getməyə məcbur olurlar. Ermənipərəst qüvvələrin və millətçilərin yürütdükləri məkrli siyasət nəticəsində 1923-cü ildə Azərbaycanın az sayda ermənilərin yaşadığı ərazisində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılır. Bundan sonra azərbaycanlıların öz doğma ocaqlarından zorla qovulması və onlara qarşı etnik təmizləmə siyasətinin yeni mərhələsi başlanır. Nəticədə XX əsrin müxtəlif dövrlərində iki milyona yaxın soydaşımız öz tarixi torpaqlarından qovulur, etnik təmizləmə siyasətinin qurbanına çevrilərək didərgin salınırlar.

### AZƏRBAYCANIN TARİXİ MAHALI

Azərbaycanın tarixi mahalı olan Zəngəzur da erməni işğalçılıq siyasətinin qurbanına çevrilir. Zəngəzur mahalı Qafan, Gorus, Qarakilsə (Sisian), Muğru, Zəngilan, Qubadlı və Laçını əhatə edirdi. XX əsrin əvvəllərində Zəngəzur mahalında 149 türk kəndi, 91 kürd kəndi və 81 erməni kəndi var idi. Qərbdən Zəngəzur, şərqdən Qarabağ dağları bu qədim mahalın sipərinə çevrilib. Çar Rusiyası dövründə Yelizavetpol quberniyasının tərkibində olub. 1905-1907 və 1914-1920-ci illərdə silahlı erməni dəstələrinin törətdiyi qırğınlar nəticəsində bu mahalda təxminən yarım milyon müsəlman həlak olmuşdur. Həmin illərdə Zəngəzurda 115 müsəlman kəndi yer üzündən silinmişdir. 4472 qadın və uşaq erməni silahlıları tərəfindən vəhşiliklə qətlə yetirilmişdir. Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən Azərbaycan K/b/P MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarı ilə həll olunmuşdu. Nəticədə Zəngəzur qəzasının 6.742 kv. verstlik ərazisindən 3.105 kv. versti Azərbaycan SSR tərkibində qalmış, 3.637 kv. verstlik hissəsi isə Ermənistana verilmişdi.

Tarixi proseslərin davamı olaraq iyirminci əsrin sonunda 1988-ci ildən başlayaraq Ermənistan silahlı qüvvələrinin ölkəmizə hərbi təcavüzü nəticəsində Zəngəzurda, Göycədə, Dərələyəzdə, İrəvanda, Vedidə - indiki Ermənistan adlanan torpaqlarda yaşayan azərbaycanlılar dədə-baba yurdlarından qovuldular. Bu gün Ermənistan Respublikasının ərazisində qalan Zəngəzur tarixi Azərbaycan torpağıdır. Tarixi mənbələrdə, müxtəlif səyyahların yazılarında göstərilir ki, Zəngəzur türklərin qədim yurd yeri olub. Zəngəzurdakı türk mənşəli toponimik adların çoxluğu da bu fikri təsdiqləyir. Xalqımıza qarşı həyata keçirilən tarixi ədalətsizlik öz qiymətini alacaq. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirib ki, Azərbaycanın əzəli torpağı olan Zəngəzurun Azərbaycandan ayırıb Ermənistana verilməsi böyük ədalətsizlik idi. Çünki Zəngəzur tarixi, əzəli Azərbaycan torpağıdır, - deyən Azərbaycan Prezidenti Cənab İlham Əliyev Zəngəzurun tarixi dövrdəki əhalisinin mütləq əksəriyyətinin azərbaycanlılar olduğunu bildirib. Təbii ki, mənbələrdə göstərildiyi kimi, Zəngəzurun bütün yaşayış məntəqələrinin adları Azərbaycan adları olub. Tarixi ədalətsizliyin sağalmayan yara olduğunu qeyd edən Cənab İlham Əliyev "vaxt gələcək və biz azərbaycanlılar bütün tarixi torpaqlarımıza qayıdacağıq"- deyə əminliyini ifadə edib. Bizim əzəli torpaqlarımız olan İrəvan xanlığı, Zəngəzur mahalı, digər torpaqlar üzərində indi Ermənistan dövləti yaradılıb. Tarixi mənbələr də sübut edir ki, Ermənistanın yerləşdiyi ərazi qədim türk, Azərbaycan torpaqlarıdır və Azərbaycanın da tarixi həqiqəti bərpa etməyi haqqıdır. Bu gün əzəli torpağımız olan İrəvanda tarixi mədəniyyət abidələrimiz dağıdılıb, məhv edilibdi. Belə ki, indi Ermənistan Respublikası adlanan tarixi Azərbaycan ərazisində çoxsaylı qalalar, qala-şəhərlər, hərbi istehkam obyektləri mövcud olmuşdur.

Bu və ya digər tarixi abidələrimiz sırasında ən möhtəşəm olanı və tədqiqatlarda indi də tez-tez adı çəkilən qala İrəvan qalasıdır. Tarixi mənbələrdə göstərilir ki, İrəvan qalası haqqında ilkin yazılı məlumat Səfəvilər dövrünə aiddir. İstər Səfəvilərin, istər Nadir şahın, istər Qacarların, istərsə də Osmanlıların hakimiyyəti dövründə İrəvan sakimlərinin, bəylərbəylərinin və xanlarının iqamətgahı İrəvan qalasında olmuşdur. İrəvan qalasının ruslar tərəfindən işğalından sonra qala dövlət mülkiyyəti elan edilmişdi. XIX əsrin 30-cu illərində İrəvan qalasındakı 120-dən artıq binada müxtəlif təyinatlı dövlət müəssisələri və təşkilatlar yerləşirdi. İrəvan qalasının həmyaşıdları - Bakıda İçərişəhərin qala divarları, onun içərisindəki Şirvanşahlar sarayı, Şəkidə Xan sarayını əhatə edən qala divarları bu gün də yaşayır və keçmişdən bu günə soraq verirlər. Göründüyü kimi, İrəvan şəhərində tarixi-memarlıq abidələrinə, dini ocaqlarımıza olan təcavüz xalqımızın tarixi keçmişini yer üzündən silmək məqsədi daşıyıb.

**Zümrüd BAYRAMOVA**

“SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# “Bizim vaxtımızda belə deyildi...”

*Yaşlı nəsil gənclərin işini niyə qəbul etmir?*



Yaşlı nəslin nümayəndələrinin gənclərin işini, həyat tərzini və ya fəaliyyət üsullarını bəyənməməsi demək olar ki, hər dövrdə müşahidə olunan sosial və psixoloji hadisədir. Bu vəziyyət təkcə fərdi zövq fərqindən yox, həm də fərqli dövrlərdə formalaşmış düşüncə tərzindən, həyat təcrübəsindən və dəyərlər sistemindən qaynaqlanır. Texnologiyanın sürətlə inkişaf etdiyi, iş modellərinin dəyişdiyi və sosial münasibətlərin əvvəlki dövrlərlə müqayisədə daha fərqli qurulduğu müasir dövrdə nəsillərarası baxış fərqi daha da görünən hala gəlib. Bir tərəf sabitlik, zəhmət və ənənəvi peşə anlayışını ön planda tutur, digər tərəf isə rahatlıq, yaradıcılıq, çeviklik və şəxsi azadlığı daha vacib hesab edir. Bu səbəbdən yaşlı nəslin gənclərin işinə münasibəti bəzən tənqid, narazılıq və ya anlaşılmazlıq formasında ortaya çıxır.

SİA mövzu ilə bağlı araşdırma edib.

Yaşlı nəslin nümayəndələrinin gənclərin işini bəyənməməsinin əsas səbəblərindən biri əmək anlayışına fərqli yanaşmadır. Əvvəlki dövrlərdə insanlar uzun saatlar işləməyi, fiziki zəhməti və bir iş yerində illərlə qalmağı məsuliyyət və ciddilik göstəricisi hesab edirdilər. Müasir gənclər isə daha çevik iş qrafiki, distant çalışma, sosial media üzərindən qazanc, şəxsi biznes və ya sərbəst fəaliyyət kimi modellərə üstünlük verirlər. Bu fərq yaşlı nəsildə ”əsl iş” anlayışının dəyişdiyi düşüncəsini yaradır. Onlara görə iş müəyyən çətinlik və yorğunluq tələb etməlidir. Gənclərin telefon və kompüter üzərindən işləyərək gəlir əldə etməsi isə bəzən ciddi əmək kimi qəbul edilmir. Digər mühüm səbəb texnologiya fərqidir. Yaşlı nəslin bir hissəsi rəqəmsal dünyanın iş imkanlarını tam anlamadığı üçün sosial media meneceri, kontent istehsalçısı, dizayner, bloger və ya onlayn satış kimi peşələri qeyri-ciddi hesab edə bilir. Halbuki müasir iqtisadiyyatın böyük hissəsi artıq rəqəmsal platformalar üzərində qurulur. Gənclər bu dəyişikliklərə daha tez uyğunlaşdıqları halda, yaşlı nəsil öyrəşdiyi sistemdən uzaqlaşmaqda çətinlik çəkir. Nəticədə yeni peşələrə qarşı skeptik münasibət formalaşır.

Burada psixoloji amillər də mühüm rol oynayır. İnsanlar illərlə formalaşdırdıqları həyat modelini doğru hesab etməyə meyllidirlər. Yaşlı nəslin nümayəndələri öz gənclik illərində daha çətin iqtisadi və sosial şəraitdə çalışdıqları üçün indiki gənclərin daha rahat işləməsini bəzən məsuliyyətsizlik kimi qiymətləndirirlər. Onlarda ”biz daha çox əziyyət çəkmişik” düşüncəsi olur. Bu isə müqayisə və tənqid meyli yaradır. Əslində isə hər dövrün öz çətinliyi var. Əvvəllər fiziki zəhmət daha çox idisə, bu gün rəqabət, sürətli dəyişiklik və psixoloji təzyiq daha yüksəkdir.

Sosial və mədəni dəyişikliklər də bu münasibətə təsir edir. Ənənəvi düşüncədə uğur sabit maaş, dövlət işi və uzunmüddətli karyera ilə ölçülürdü. Müasir gənclər isə bəzən daha çox azadlıq, balanslı həyat və şəxsi məmnuniyyət axtarırlar. Onlar yalnız yüksək maaş üçün deyil, həm də psixoloji rahatlıq üçün iş seçirlər. Yaşlı nəslin bir hissəsi isə bunu məsuliyyətdən qaçmaq kimi qəbul edir. Çünki onların formalaşdığı dövrdə iş əsasən dolanışıq vasitəsi idi, özünüifadə və şəxsi inkişaf anlayışı ikinci planda qalırdı.

Bəzən problem ünsiyyət fərqindən də yaranır. Gənclər iş mühitində daha sərbəst davranmağa, rəhbərlə rahat ünsiyyət qurmağa və öz fikirlərini açıq bildirməyə meyllidirlər. Əvvəlki nəsildə isə daha sərt iyerarxiya və itaət anlayışı üstün idi. Bu fərq yaşlı nəslə hörmətsizlik kimi görünə bilər. Halbuki bir çox halda bu, sadəcə yeni iş mədəniyyətidir. Ancaq qeyd etmək lazımdır ki, bütün yaşlı insanlar gənclərin işini bəyənmir demək doğru olmazdı. Bir çox yaşlı insanlar yeni dövrün imkanlarını qəbul edir, gənclərin yaradıcılığını və texnologiyaya uyğunlaşmasını yüksək qiymətləndirirlər. Eyni zamanda bəzi gənclər də əvvəlki nəslin təcrübəsini və zəhmət anlayışını kifayət qədər anlamır. Bu səbəbdən məsələni ”doğru” və ”yanlış” qarşıdurması kimi yox, daha çox nəsillərarası fərqli düşüncə modeli kimi qiymətləndirmək lazımdır.

Nəticə olaraq, yaşlı nəslin gənclərin işini bəyənməməsinin səbəbi əsasən dövr fərqi, dəyişən əmək bazarı, texnologiya, fərqli dəyərlər sistemi və psixoloji müqayisələrdir. Cəmiyyət dəyişdikcə iş anlayışı da dəyişir. Əsas məsələ fərqli nəsillərin bir-birini ittiham etməsi yox, qarşılıqlı anlayış formalaşdırmasıdır. Çünki həm əvvəlki nəslin təcrübəsi, həm də yeni nəslin yenilikçi yanaşması birlikdə daha sağlam və balanslı əmək mühiti yarada bilər.

***Ayşən Vəli***

# “Yoluxma riski” - ÜST Azərbaycanda hantavirusa dair məlumat yaydı

“Hazırda hantavirusun yayılma riski aşağıdır.” Bu barədə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı Nümayəndəliyi məlumat yayıb. ÜST Beynəlxalq Səhiyyə Qaydaları çərçivəsində bir neçə ölkə ilə birlikdə sürətli cavab tədbirləri üzərində çalışır. Əsas diqqət xəstələrin müalicəsinə, təhlükəsizliyə və virusun daha da yayılmasının qarşısını almağa yönəlib. İnsanlar adətən hantavirusa yoluxmuş gəmiricilərlə təmas nəticəsində, xüsusilə onların sidiyi, nəcisi və ya tüpürcəyi vasitəsilə yoluxurlar. Bəzən çirklənmiş tozun nəfəsə çəkilməsi də infeksiyaya səbəb ola bilər. Nadir hallarda gəmirici dişləmələri də virusu ötürə bilər.




Bəs bu virusun diaqnozu üçün Azərbaycanda laboratoriya imkanları varmı?

Bildirilib ki, Azərbaycanda həm insan sağlamlığı, həm də heyvan sağlamlığı laboratoriyalarında hantavirusun PCR üsulu ilə yoxlanılması imkanı mövcuddur: ”ÜST həmçinin, Andes virusu üçün etibarlı testlərin təmin edilməsi məqsədilə Avropa üzrə laboratoriyalarla əməkdaşlıq edir.

Lazım gəlsə, nümunələr təsdiqləmə üçün təhlükəsiz şəkildə ÜST-nin ixtisaslaşmış referans laboratoriyalarına göndərilə bilər. ÜST yaxın zamanda region üzrə test proseslərini dəstəkləmək üçün yenilənmiş laboratoriya təlimatlarını yayımlayacaq”.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
sesmediaqrup@gmail.com
sesqazeti@gmail.com
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet həftədə iki dəfə nəşr olunur
Tiraj: 2000